


# Azərbaycan–Özbəkistan media əməkdaşlığı genişlənəcək

**Azərbaycan Mətbuat Şurası ilə Özbəkistan Jurnalistlər İttifaqı arasında əməkdaşlıq memorandumu imzalanıb.**

Mərasimi giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid Azərbaycanla Özbəkistan arasında bütün sahələrdəki yüksək səviyyəli münasibətlərin son illər media müstəvisində də əlaqələrin genişləndirilməsinə meydan açdığını vurğulayıb. O, memorandumda nəzərdə tutulan ayrı-ayrı müddəaların birgə fəaliyyətin sistemli və faydalı olması baxımından önəmini də qeyd edib.

Özbəkistan Jurnalistlər İttifaqının sədri X.Səlimov rəhbərlik etdiyi qurumun Azərbaycan Mətbuat Şurası ilə əməkdaşlıq memorandumunu qarşılıqlı təcrübə mübadiləsinə və iki xalq arasında dostluğun möhkəmləndirilməsinə geniş imkanlar yaradan platforma kimi səciyyələndirib.

MŞ İdarə Heyətinin üzvlərindən Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, "Azxeber.com" saytının baş redaktoru Hacıbəy Heydərli, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu, Ahıl Jurnalistlər Məclisinin sədr müavini Əminə Yusifqızı, MŞ-nin icraçı katibi Əvəz Rüstəmov, publisist Aida Eyvazova hər iki ölkə jurnalistlərinin əməkdaşlığının genişləndirilməsi ilə bağlı rəy və təkliflərini söyləyiblər.

Özbəkistan Həmkarlar İttifaqının "Trest" və "Doverie" qəzetlərinin baş redaktoru Husan Ermatov, Gənc Jurnalistlər Şurasının sədri Şöhrət Oripov, "Tonq yüztəri" qəzetinin baş redaktoru Feroza Odilova, Dövlət İnformasiya Agentliyinin redaktoru Əzizə Həlimova memorandumun ölkələrimizin media qurumlarının birgə fəaliyyətini stimullaşdırdığını bildiriblər.

**T.RÜSTƏMLİ**
**XQ**